**AZƏRBAYCAN RESPUBLIKASI TƏHSİL NAZIRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**YUSİF XIDIR OĞLU QAZIYEV**

# AZƏRBAYCANDA MƏKTƏB KİTABXANALARININ YARANMASI VƏ İNKİŞAFI

**5804.01 –Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı-2016**

İş Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi məsləhətçilər:** | **Əjdər Əbdülhüseyn oğlu Ağayev**<br>*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim* |
| | **Xəlil İsmayıl oğlu İsmayılov**<br>*tarix üzrə elmlər doktoru, professor* |
| **Rəsmi opponentlər:** | **Akif Nurağa oğlu Abbasov**<br>*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim* |
| | **Bayrəm Vəli oğlu Allahverdiyev**<br>*tarix üzrə elmlər doktoru, professor* |
| | **Fərahim Balakişi oğlu Sadıqov**<br>*pedaqogika üzrə elmlər doktoru, professor* |
| **Aparıcı təşkilat:** | **Bakı Slavyan Universitetinin pedaqogika kafedrası** |

Müdafiə 18 oktyabr 2016-cı ildə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya Şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az-1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" sentyabr 2016-cı il tarixdə göndərilib.

**Dissertasiya Şurasının elmi katibi:** **K.R.Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Azərbaycan xalqı əsrlərdən bəri arzusunda olduğu dövlət müstəqilliyini əldə etdikdən sonra onun qarşısında çox geniş bir inkişaf yolu və tərəqqi perspektivləri açıldı.Müstəqilliyimizin nəticəsi ölkəmizdə iqtisadi, ictimai-siyasi, mədəni, humanitar və sosial həyatın bütün sahələrində, habelə beynəlxalq aləmdə prinsipial dəyişikliklərin yaranmasına, müstəqil dövlətçiliyimizin obyektiv tarixinin yazılmasına doğru yol açıldı.

1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyası cəmiyyətə xidmət edən bütün sosial institutları demokratik prinsiplər əsasında öz fəaliyyətini yeniləşdirməsi üçün ilk dəfə əsaslı şərait yaratdı.

Bu gün Azərbaycan xalqının tarixinin doğru-düzgün yazılmasının və Azərbaycan tarixi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının böyük əhəmiyyəti vardır.

Bu baxımdan mövzunun tədqiqi məktəbdə təlim-tərbiyə prosesinin stimullaşdırılmasında, onun keyfiyyətinin yüksəldilməsində məktəb kitabxanalarının rolunu dəyərləndirmək məqsədəuyğundur.

Bəşər sivilizasiyasının ən böyük nailiyyətlərindən olan kitab və digər informasiya daşıyıcıları cəmiyyətin intellektual potensialının inkişafının sürətli vasitəsi kimi nəsildən nəsilə məhz kitabxanalar vasitəsilə çatdırılır.

Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mədəniyyət, bilik, zəka mənbəyidir»[1].

"Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası prezidentinin 20 aprel 2007-ci il sərəncamında deyilir: "Azərbaycan kitabxanaları, Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərinin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır"[2]

Təhsil sisteminin qarşısında mühüm vəzifələr qoyulduğu indiki şəraitdə təlim və tərbiyə işində məktəbin ən yaxın köməkçisi, onun bir saylı

---

[1] Azərbaycan Respublikasının keçmiş Prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Milli Dövlət Kitabxanasında çıxışı // "Azərbaycan" qəzeti, 6 iyun 1995

[2] "Ədəbiyyat" qəzeti, 27 aprel 2007-ci il № 16

laboratoriyası hesab edilən məktəb kitabxanalarının tarixini öyrənmək xalqımızın maarif və mədəniyyət tarixini bir daha zənginləşdirilməsinə nail oluna bilər.

Zəngin tarixi irsimizdə mühüm rol oynayan məktəb kitabxanalarının ayrı-ayrı dövrlərdəki inkişaf xüsusiyyətlərinə dair qiymətli nəzəri, metodik və təcrübi iş və fikirlər, maraqlı mülahizələr vardır. Bu zəngin irsin öyrənilib ümumiləşdirilib, metodik iş üsullarının bütün komponentlərinin sistem halında dərindən təhlil və tədqiq edilməsi müasir məktəblər üçün son dərəcə zəruridir.

Məktəb kitabxanalarının tarixini araşdırarkən aydın olur ki, Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra, Azərbaycanda məktəb və məktəb kitabxana işinin tarixində yeni dövr başladı: Azərbaycanda yeni rus məktəbləri və onların nəzdində kitabxanalar yarandı. Bu kitabxanalar qabaqcıl Avropa və rus mədəniyyətinin Azərbaycanda yayılmasında və xalq maarifinin inkişafında başlıca rol oynadı.

Bu baxımdan bir çox Rus və Azərbaycan maarifpərvərləri və tədqiqatçıları milli xüsusiyyətlərə, xalqın mentalitetinə uyğun fikir və mülahizələr söyləmişlər, məqalələr və əsərlər yazmışlar. Onlar Sovet hakimiyyəti dövrünə qədər və Sovet hakimiyyəti dövründə həmin yazılarda məktəb kitabxana işinə,kitab fonduna, şagird mütaliəsinə dair bu və ya digər məsələləri işıqlandırmağa cəhd göstərmişlər.

Bununla yanaşı Sovet hakimiyyəti dövründə Azərbaycan xalqının keçmiş maarif və mədəni irsinin öyrənilməsində alim və pedaqoqlarımızın qiymətli əsər və məqalələri, o cümlədən onların tariximizə dair yazdıqları kitablar mühüm yer tutur.

Həmçinin, Azərbaycan kitabxanaşünaslığında qarşıya yeni vəzifələr çıxır ki, onların həlli müxtəlif tarixi mərhələlərdə toplanmış təcrübənin, nailiyyətlərin, yol verilmiş nöqsanların neqativ hallarının elmi-pedaqoji cəhətdən araşdırılıb ümumiləşdirilməsi zərurətini ortaya çıxarır.

Bu baxımdan görkəmli Azərbaycan və rus pedaqoq və tədqiqatçıların əsərlərində təlim işində mühüm rol oynayan məktəb bazası-bina, kitabxana, digər tədris vəsait və vasitələri haqqında dəyərli məlumatlara rast gəlmək olur. Ancaq qeyd edilən həmin əsərlərdə təlim-tərbiyə prosesində, xalq maarifinin inkişafında mühüm rol oynayan məktəb kitabxanalarının işi tam işıqlandırılmamışdır.

Məhz bu səbəbdən Azərbaycanda məktəb kitabxanalarının yaranması və tarixi inkişafı problemini tədqiq etməyi zəruri hesab etdik.

**Tədqiqatın xronoloji çərçivəsi.**Tədqiqatın 15 əsrdən çox bir dövrü (446-1991-ci illər) əhatə edir. Azərbaycanda məktəb kitabxanalarının şagirdlərin təlim-tərbiyə prosesinin fəaliyyətində apardıqları metodik işlərin

mərhələləri üzrə, o cümlədən onların fondlarının araşdırılması tarixi zərurətdən irəli gəlir. Belə ki, Azərbaycanda ayrı-ayrı tarixi dövrlərdə məktəb kitabxanalarının fəaliyyətini tədqiq etmək, onların metodiki və əməli işlərinin aşkara çıxarılması mühüm əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi**. Problemin öyrənilmə səviyyəsini müəyyən edərkən onu qeyd etmək lazımdır ki, tədqiqat probleminin xronoloji çərçivəsində əsasən Qafqaz Albaniyası, Xilafət, Rusiya imperiyası və Sovet İttifaqı tərkibində Azərbaycanda məktəb kitabxanalarının fəaliyyətini öyrənmək məqsədilə, həmin dövrlərin məktəb kitabxanaları haqqında yazılmış əsərlərdən geniş istifadə edilmişdir.

Qeyd etmək lazımdır ki, məktəb kitabxanalarının fəaliyyəti tarixən dövlətin diqqət mərkəzində olmuş və şagirdlərin sinifdənxaric mütaliəsi ilə əlaqədar qərarlar qəbul edilmiş və məqalələr yazılmışdır. Məqalə və qərarlar dövlət siyasətinin ideoloji prinsiplərinə uyğun olaraq hər dövrün ruhuna, sosial-iqtisadi və mədəni siyasət tələblərinə uyğun olaraq həyata keçirilmişdir.

XX əsrin 80-ci illərindən başlayaraq Azərbaycanda məktəb kitabxanalarının metodik təyinat problemi ortaya atılmışdır. Bu baxımdan 1982-ci ildə Azərbaycan KPMK-nin və Azərbaycan Nazirlər Sovetinin birgə qərarı ilə Respublika Elmi Pedaqoji Kitabxanası (REPK-nın) yaradıldı. 1983-cü ildən fəaliyyətə başlayan REPK məktəb kitabxanalarının metodik təminat işində böyük rol oynadı.

**Tədqiqatın obyekti**. Azərbaycanda məktəb kitabxana işinin metodik iş üsullarının inkişaf tarixinin araşdırılması və onların təlim tərbiyədə fəaliyyətinin rolunu aşkar etmək olmuşdur.

**Tədqiqatın predmeti**. Azərbaycanda məktəb kitabxana işinin metodik və pedaqoji işgüzarlıq fəaliyyətinin yaranması, inkişaf mərpələsi və onların sonrakı dövrlərdə fəaliyyətinin optimallaşdırılması yollarıdır.

**Tədqiqatın əsas məqsədi** aşağıdakılardan ibarət olmuşdur:

1) tədqiqatın əhatə etdiyi dövrlərdə (446-1991-ci illər) məktəb kitabxanalarının inkişaf tarixini araşdırmaq, kitabxanaların spesifik xüsusiyyətlərini öyrənərək mətbuatda işıqlandırmaq, həmçinin məktəb kitabxanalarının inkişafı prosesində maneələri və çatışmazlıqları araşdırmaq, onları doğuran obyektiv və subyektiv səbəbləri aşkar etmək və dövrün dövlət siyasətinin mahiyyətini uzə çıxarmaq olmuşdur. Həmçinin qarşıya qoyulmuş əsas məqsəd kitabxana fondunun tərkibi, onun şagird və müəllim kontingenti ilə müvafiqləşdirilməsi və digər tədris vasitə və vəsaitlərinin statistik məlumatını, kitabların elm və bədii məzmununu müəyyənləşdirməkdən ibarət olmuşdur; 2) məktəb və mədrəsə kitabxanalarının təlim keyfiyyətinin yüksəldilməsində yeri, rolu və inkişaf

tarixini araşdırmaq; 3) təlimi rus dilində olan dünyəvi məktəblərin kitabxanalarının işinin forması, məzmunu və inkişaf tarixini araşdırmaq; 4) 1920-ci ilə qədər Azərbaycan maarifpərvər və pedaqoqlarının sinifdənxaric və məktəbdənxaric şagird mütaliəsi və bununla əlaqədar olaraq onların məktəb kitabxanalarının fəaliyyəti haqqındakı fikirlərini aşkar etmək; 5) təlim keyfiyyətinin yüksəldilməsində məktəb kitabxanalarının iş formalarını öyrənmək; 6) yerli əhalinin maariflənməsində məktəb kitabxanalarının fəaliyyətini aşkar etmək; 7) Azərbaycan ictimaiyyətinin məktəb kitabxanalarına münasibətini aşkar etmək;8) Şagirdlərə və yerli əhaliyə kitabxana xidmətini aşkar etmək;9)Sovet hakimiyyəti dövründə məktəb kitabxanalarının inkişaf tarixini araşdırmaq və onların təlim-tərbiyədə nə kimi rol oynadığını müəyyən etmək, həmçinin inkişafın dərin təhlilini vermək və s. olmuşdur.

Tədqiqatın qarşısında aşağıdakı **vəzifələr** qoyulmuşdur: 1. Azərbaycanın Rusiyaya ilhaq edilməsi dövrünə qədər mövcud məktəb kitabxanalarının işinin xarakterini təyin etmək; 2. Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra bütün tip məktəb kitabxanalarının (qəza, ibtidai, orta və s.) xüsusiyyət və xarakterlərini aşkar etmək; 3. Məktəb kitabxanalarının təlim-tərbiyə işində fəaliyyətini ətraflı işıqlandırmaq, iş üsul və formalarını aşkar etmək; onların tənqidi təhlilini vermək; 4. Bütün tip məktəb kitabxanaları, onların kitab fondu, kitabların şagird kontinkenti ilə mütənasib olub olmadıqları haqqında bütün tarixi dövrlərdə doğru statistik məlumatını vermək; 5. Kitabxanalarda olan kitabların məzmununu, sinifdən və məktəbdənxaric mütaliənin təşkilini, kitab tədavülü qaydalarını işıqlandırmaq; 6.Qabaqcıl rus, Azərbaycan maarifçilərinin və pedaqoqlarının məktəb kitabxanası və şagird mütaliəsinin təşkili haqqındakı fikirlərini təhlilə cəlb etmək; 7. Azərbaycan ictimaiyyətinin məktəb kitabxanalarının kitab fonduna köməyini səciyyələndirmək; 8. Məktəb və mədrəsə kitabxanalarına, o cümlədən müsəlman məktəb kitabxanalarına çarizmin münasibətini aşkar etmək; 9. Mövzu ilə əlaqədar olan ayrı-ayrı pedaqoji, tarixi, ədəbi və fəlsəfi əsər və məqalələrin elmi təhlilini vermək və ümumiləşdirmək; 10. Kitabxanaların vəziyyətini, ictimai, siyasi, iqtisadi əsasını əks etdirmək.

Nəzərdə tutulan məqsəd və vəzifələrin tədqiqatında aşağıdakı çətinliklər olmuşdur:

1.Mövzu ilə əlaqədar tədqiqat işi olmamışdır; 2.Bütün dövrlərdə məktəb kitabxanalarının təlim işində rolu lazımınca qiymətləndirilmədiyi üçün, dövrü mətbuatda məktəb kitabxana işinə dair nadir məqalələr və kitabçalara rast gəlmək olur ki, bunlar da mövzunun tədqiqatını kifayət etmirdi, ona görə arxiv materiallarından, əlyazmalarından istifadə etmək

zərurəti qarşıya çıxdı; 3. Digər çətinliyin biri də ondan ibarət olmuşdur ki, QTD-ə (Qafqaz Tədris Dairəsi – 1804-1918-ci illər) daxil olan kitabxanaların, həmçinin Sovet dövründə müxtəlif pilləli məktəb sistemi ilə əlaqədar olaraq – məktəb kitabxanaları işi də bir-birindən fərqlənirdi. Bu baxımdan pedaqoji cəhətdən iş üsullarının tədqiqinin ümumiləşdirilməsində müəyyən qədər çətinlik yaranırdı.

**Tədqiqatın metodları.** Dissertasiyanın tədqiqi zamanı kompleks tədqiqat metodlarından istifadə edilmişdir. O cümlədən biri-birini tamamlayan didaktik metodlardan istifadə olunmuşdur: Azərbaycanda məktəb kitabxanalarının inkşafı mərhələlərlə müəyyən edilmiş, hər mərhələdə müxtəlif tip məktəblərin kitabxanalarının fəaliyyət və işləri tarixi-nöqteyi nəzərdən özünəməxsus xüsusiyyətləri təhlil edilərək nəticələr çıxarılmışdır; inkişafın və xidmət işlərinin maneələri müəyyənləşdirilmiş, tarixi təhlil metodu tətbiq edilmişdir.

Tədqiqatın tədqiqinin **metodoloji əsasını** ayrı-ayrı dövrlər üzrə mövcud olmuş pedaqoj fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək, onları araşdırmaq məqsədilə aşkar olunan nəzəri müddəaların, prinsiplərin, metod və priyomların məcmusu təşkil edir.

Burada aşağıdakı əsas məqamlara nəzər yetirilmişdir: təlim-tərbiyə prosesinin təşkili və məqsədyönlüyü haqqında nəzəri müddəalar, dövlət sənədləri, məktəb haqqında sənədlər, pedaqogika klassiklərinin, müasir görkəmli pedaqoq və psixoloqların təlim-tərbiyə haqqında fikirləri, həmçinin sinifdən və məktəbdənxaric mütaliə təliminin keyfiyyətlərinin və səmərəliliyinin yüksəldilməsi problemi ilə bağlı alim-metodistlərin elmi ümumiləşdirmələridir.

Tədqiqat işi 5 fəsildən ibarətdir.Buraya 30 cədvəl və 16 arxiv vərəqlərinin fotoköçürmələri daxildir.

Qarşıya qoyulmuş problemin tədqiqatında aşağıdakı **mənbələrdən** istifadə edilmişdir.

I. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi; Azərbaycan Respublikası Xalq Maarif Komissarlığının fondu (f.57) və Həmkarlar İttifaqı Azərbaycan Şurası fondu (f.1114) və o cümlədən 51 və 894 nömrəli fondlar.

II. Tbilisi şəhərində Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivindən aşağıdakı fondlar: Qafqaz arxeologiya komissiyası (1864-1917), Qafqaz Tədris Dairəsi popecitelinin dəftərxanası (1849-1917), Qafqaz və Zaqafqaziya tədris müəssisələrinin Baş inspektorunun dəftərxanası (1831-1848), Məktəblərin Tiflis direksiyası (1849-1873), Zaqafqaziya məktəblərinin direksiyası (1831-1848), Qafqazda mülki hissənin baş rəhbərliyinin Baş idarə rəisinin dəftərxanası (1859-1883) və s.

O cümlədən aşağıdakı fondlar: 12, 416, 422, 423, 424, 425

III. Dövrün cari mətbuatı (faktlar, təqvimlər, sərəncamlar, hesabatlar və s.)

IV. Azərbaycan sovet pedaqoqlarının Azərbaycanda məktəb və pedaqoji fikir tarixinə dair yazdıqları əsərlər, Azərbaycan tarixçilərinin əsərləri.

V. XIX və XX əsr görkəmli Azərbaycan pedaqoq və maarifçilərin əsərləri.

VI. Pedaqoji mətbuat.

Mövzu H.Tağıyevin, A.Xələfovun, Ə.Seyidovun, H.Əhmədovun, M.Mehdizadənin, X.İ.İsmayılovun, Ə.Xələfovun, XIX və XX əsr görkəmli Azərbaycan pedaqoqlarının əsər və tədqiqatlarından qidalanmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi aşağıdakı səciyyəvi cəhətlərlə aşkar edilir:

- dissertasiya geniş faktik-statistikk və arxiv materiallarının elmi dövriyyəyə gətirilməsi əsasında Azərbaycanda məktəb kitabxanalarının fəaliyyətinin metod və üsullarının inkişaf mərhələlərini, mövcud dövrün vəziyyətini və təkmilləşdirilməsi prosesini öyrənib ümumiləşdirən ilk tədqiqat əsəridir.

- Azərbaycanda məktəb kitabxanalarının inkişaf tarixi bizim eranın V-XX əsrləri ərzində ilk dəfə olaraq tədqiqat obyektinə çevrilir. Məktəb kitabxanalarının inkişaf xüsusiyyətləri, onların təlim-tərbiyədə rolu araşdırılır. Məktəb kitabxanalarının apardıqları işlərin, o cümlədən şagird mütaliəsinin məzmun və formaları müəyyən edilir.

- dissertasiyada ilk dəfə olaraq Azərbaycanda məktəb kitabxanaşünaslığında mühüm addım Azərbaycan Demokratik Cümhuriyyəti dövründə məktəb kitabxanalarının işinin ümumi vəziyyəti təhlil edilmiş və məktəb kitabxana işinin təşkili prespektivləri müəyyənləşdirilmişdir.

- dissertasiya Sovet hakimiyyəti illərində, xüsusən aprel çevrilişindən sonra Azərbaycanda məktəb kitabxana quruculuğu sahəsində Sovet hökuməti və Kommunist Partiyası tərəfindən həyata keçirilən tədbirlərin ideoloji mahiyyəti tənqidi təhlil edilib öyrənilmişdir.

- müəllif tərəfindən hələ bu vaxta qədər nəzəri və metodik ədəbiyyatda öz əksini tapmamış müxtəlif tip məktəb kitabxanalarında metodik və iş üsullarının formalaşması prosesi və bu prosesin səmərəli nəticələri işıqlandırılmışdır.

-tədqiqatda ilk dəfə olaraq V-XX əsrlərdə məktəb kitabxana işinin müxtəlif məsələləri: o cümlədən məktəb kitabxana işinin təşkili və idarə olunması, kitabxana fondlarının formalaşması; kataloqlar, informasiya və

biblioqrafiya işləri, kütləvi tədbirlər, oxuculara xidmət, ədəbiyyatın təbliği və s. məsələlər üzrə çap edilmiş kitablar və metodik vəsaitlər araşdırılıb təhlil edilmişdir.

- tədqiqatın gedişində məktəb kitabxanalarının inkişafı, aparılan işlərin forma və məzmununda baş verən qüsurlar və nöqsanlar aşkar edilir, ümumiləşdirilir.

- tədqiqat prosesində Azərbaycanda məktəb kitabxana işinin metod və iş üsulları, bu sahədəki elmi və təcrübi proseslər, məktəb kitabxanalarının inkişaf istiqamətləri və çətinlikləri, həmçinin onların səmərəli fəaliyyətləri kompleks şəkildə öyrənilib dövrü mətbuatda ümumiləşdirilərək işıqlandırılmışdır.

- maarif və mədəniyyətimizin qaranlıq səhifələri, itib-batan, unudulan və oğurlanan pedaqoji fikir tariximiz, Azərbaycan xalqının maarif və mədəniyyət sahəsində arxivlərdə yatan nailiyyət və əməli işləri üzə çıxarılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, müasir dövrdə Azərbaycanda məktəbşünaslığın tərkib hissələrindən ən mühümüsü olan məktəb kitabxanaçılıq işinin öyrənilməsi tarixi gələcək tədqiqatlar nəzəri biliklər əsasında araşdırmalar apara bilərlər.

**Tədqiqatın praktik əhəmiyyəti**. Dissertasiya materiallarından və tədqiqat prosesində çıxarılmış elmi nəticələrdən aşağıdakı praktiki problemlərin həlli üçün şərait yaranır:

- tədqiqatın nəticəsi məktəblərdə kitabxanalara geniş əhatəli iş metod və üsulları aça bilər. Bununla bərabər məktəbdə təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin elmi biliklərə dərindən yiyələnməsi, onlarda mütaliə mədəniyyətinin formalaşması üzrə pedaqoji kollektivin və məktəb kitabxanasının əlbir iş sistemi müəyyənləşir. Bu da pedaqoji təhsilin inkişaf problemləri üzrə tarixi-pedaqoji bilikləri genişləndirməyə imkan verir, ümumiləşdirilmiş nəticələrdən mühazirələrdə, pedaqogika, pedaqogika tarixi, xüsusilə Azərbaycan məktəb pedaqoji fikir tarixi üzrə xüsusi kurslarda, konfrans və pedaqoji yığıncaqlarda istifadə edilə bilər.

- tədqiqat əsasında ilk dəfə elmi dövriyyəyə daxil edilmiş sənəd və materiallardan Azərbaycanda məktəb kitabxana işinin inkişaf tarixinə və onun təlim prosesindəki əhəmiyyətli roluna dair elmi tədqiqatların aparılmasında;

- məktəb kitabxanalarının metodi təminatına dair yeni tövsiyə və təkliflərin həyata keçirilməsində;

- Azərbaycanda məktəb kitabxana işinin metodik təminatı ilə bağlı dünya təcrübəsinə, milli dəyərlərə və ənənələrə söykənən yeni inkişaf konsepsiyasına dair konkret təməli proqramların hazırlanıb həyata keçirilməsində;

- kitabxana kadrları hazırlayan ali və orta ixtisas təhsili müəssisələrində, mədəni-maarif məktəblərində;

- kitabxanaçılıq-informasiya mütəxəssislərinin ixtisasartırma kurslarında;

- kitabxanaçı-metodist kadrların hazırlanmasında və peşə səviyyəsinin yüksəldilməsində;

- tədqiqatın nəticələrindən şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsi, o cümlədən kitab mütaliəsi ilə məşhur olanlar üçün metodik vəsait və məqalələrin hazırlanmasında yararlanmaq və istifadə etmək labüddür.

- məktəb kollektivinin – müdiriyyətin, müəllimlərin, sinif rəhbərlərinin və valideynlərin kömək və əlaqələrini təmin etməklə məktəblərin sinifdən və məktəbdən kənar mütaliəsinin təşkilində.

Müdafiəyəyə aşağıdakı əsas **müddəalar** çıxarılır:

- Azərbaycanda məktəb kitabxanalarının inkişafının dövrləşdirilməsi və hər bir dövrün özünəməxsus xüsusiyyətlərinin müəyyənləşdirilməsi olmuşdur;

- məktəb kitabxanalarının inkişaf tarixinin bütün mərhələlərində apardıqları işin məzmunu, forma və üsulları hər bir dövrün sosial-iqtisadi, mədəni həyatı və məktəb kitabxana işinin inkişafı ilə əlaqədar şəkildə təhlili qarşıya qoyulmuşdur;

- məktəb kitabxana işinə dair mərkəzi tədris müəssisələrinin fəaliyyətinin araşdırılması və məktəb kitabxanalarının vəzifələrinin həyata keçirilməsi başlıca məqsəd olmuşdur;

- tədqiqat dövründə məktəb kitabxana işinə dair meydana gəlmiş metodik və bədii ədəbiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi, kitabxanaların kitab fondunun müəllim və şagird kontgenti ilə müvafiq baxımdan səciyyələşdirilməsi və araşdırılması vacib problem kimi dəyərləndirilmişdir;

- mövzu tədqiq olunan dövrdə Azərbaycanda məktəb kitabxanalarda olan nöqsan və qüsurlara baxmayaraq zənginləşmə və inkişaf dövrü keçirmişdir;

- məktəb kitabxanalarının maddi bazası olan kitab fondu həm müəllimlər, həm də şagirdlər üçün tələbata uyğun olmaması tədqiq edilmişdir;

- kitab fondu köklü xalqların dilində olması tamamilə dövlət tərəfindən nəzarətə götürülməmişdir, milli məktəblərdə - rus-tatar (Azərbaycan-Y.Qazıyev) məktəblərində ana dilində kitab və dərsliklər tələb və məzmuna uyğun olmamışdır. Bu hal Sovet dövründə bir qədər yaxşılaşdırılmışdırsa da, yenə qüsurların davam etməsi olmuşdur;

- baş verən nöqsan və qüsurların obyektiv və subyektiv səbəbləri ən başlıca sosial sahədən doğan iqtisadiyyat və siyasət təhlilə cəlb olunmuşdur;

- xalq təhsilinin gedişində məktəb kitabxanalarının fəaliyyətlərinin xüsusi çəkisi müəyyənləşdirilmiş, onların təlim-tərbiyədə rollarının artması səbəbləri və onlara yardımçı təsir göstərən amillərin araşdırılması olmuşdur;

- məktəb kitabxana fondunun inkişafında və kitabxanaçılıq kadrları hazırlığında neqativ halların obyektiv və subyektiv səbəblərin qeyd edilmişdir;

- məktəb kitabxanaçılarının hazırlığı, nəzəri-praktik səviyyəsinin yüksəlməsi yolları, həmçinin kitabxanaların işgüzarlığı təhlil obyektinə çevrilmişdir;

- valideynlərin və ictimaiyyətin məktəblərə və onların kitabxanalara münasibəti, maddi yardımı müzakirə mövzusuna çevrilmişdir;

**Tədqiqatın aprobasiyası.** Tədqiqat prosesində dissertasiyada əldə edilmiş nəticələr müxtəlif yollarla - mühazirə və məruzələrlə, dövrü mətbuatla çatdırılmışdır: 2 elmi konfransın tezisində, 2 elmi konfransın məcmuəsində, həcmi 70 səhifə olmaqla 2 monoqrafiyanın içərisində, 11 qəzet məqaləsində, 35 jurnal məqaləsində və nəhayət mövzuya dair 464 səhifə olan monoqrafiyada.

**Tədqiqatın quruluşu**: Dissertasiya giriş, 5 fəsil, nəticə, istifadə edilən mənbə və ədəbiyyat siyahısından ibarətdir

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqatın aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi araşdırılır, mövzunun məqsəd və vəzifələri, mənbəşünaslıq bazası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılır və tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodları, elmi əhəmiyyəti müəyyənləşdirilir və aprobasiya açıqlanır.

«**Qədim dövrlərdən XIX əsrin əvvəllərinə qədər Azərbaycanda məktəb kitabxanalarının yaranması və inkişaf tarixindən (V-XVIII əsrlər)**» adlanan I fəsil 2 yarım fəsildən ibarətdir. ***«Məktəb kitabxanalarının meydana gəlməsi (446-670-ci illər)»*** adlanan I yarım fəsildə Qafqaz Albaniyasının məktəb kitabxanaları haqqında məlumat

verilir. Kilsələr nəzdində yaradılan məktəb kitabxanalarının kitab fondu və fondun məzmunu izah edilir.

Alban kilsə məktəbləri nəzdində kitabxanalarda 5 elm sahəsi üzrə kitablar toplanırdı: 1) dini etiqad ədəbiyyatı; 2) hüquqşünas ədəbiyyatı; 3) tarixi salnamə və xronoloji ədəbiyyat; 4) bədii ədəbiyyat; 5) Qrammatika ədəbiyyatı.

***«Məktəb kitabxanalarının inkşafı (671-1804-cü illər)»*** adlı II yarım fəsildə izah edilir ki, ərəblər Azərbaycanı işğal etdikdən sonra (VII əsr) İslam dinini təbliğ etmək və əhalini ərəbləşdirmək məqsədilə məscidlər tikilir, məscidlər yanında müsəlman məktəbləri – məktəb və mədrəsələr təşkil edilir və onların nəzdində kitabxanalar yaranır və izah edilir ki, işğal dövrlərində məktəb və mədrəsələr və onların nəzdində olan kitabxanalar dağıdılmış və zaman keçdikdən sonra yenidən bərpa edilmişdir.

Zəngin və qədim tarixə malik olan məktəb və mədrəsə kitabxanaları qədim Şərq mədəniyyəti ilə bağlı olub, orta əsr Azərbaycan mədəniyyəti ilə maarifin islamçılığını, qardaşlığını və beynəlmiləlçiliyini təbliğ edərək onları inkişaf etdirmişdir.

**«Rusiya işğalından sonra Azərbaycanda məktəb kitabxanaları (1804-1918-ci illər)»** adlanan II **f**əsil **6** yarım fəsildən ibarətdir. ***«Məktəb, mədrəsə və yeni müsəlman məktəblərinin kitabxanaları şəbəkəsinin yaranması və inkişafı»*** adlanan I yarım fəsildə izah edilir ki, əvvəlki dövrlərdə olduğu kimi Rus işğalı dövründə də məktəb və mədrəsələr yanında və ya şəxsi evlərdə kitabxanalar təşkil edilirdi. Bu növ kitabxanalara dövlət nəzarəti olmamışdır.

Lakin şagirdlərin sinifdənxaric mütailələri diqqətəlayiq idi. Bu münasibətlə İ. Şopen 1837-ci ildə «Ermənistan vilayətində maarifin vəziyyəti haqqında» məqaləsində yazırdı: «Gənclər bədii ədəbiyyatla çox məşğul olurlar. Onlardan bir çoxu Rudaki, Firdovsi, Ənvəri, Nizami, Cami, Hafis, Sədi və digər məşhur söz ustalarının əsərlərini əzbərdən bilirdilər».

Məktəb və mədrəsə kitabxanalarında kitab və digər tədris vəsaitlərinin çatışmazlığı şəraitində şagirdlərin sinifdənxaric mütaliəsi öz dövrünün azərbaycanlı ziyalılarının həmişə diqqətində olmuşdur. Belə maarifçilərdən biri də A.A,Bakıxanovdur (1794-1846).

Bu görkəmli maarifpərvər öz şəxsi kitabxanasını uşaqlar üçün açıq elan etmişdir. O, təşəbbüs edib uşaq və gənclərin mütaliəsinə xidmət göstərən «Təhzibül-əxlaq» və «Nəsaye» əsərlərini yaratmışdır, digər tərəfdən isə tərcümələri vasitəsilə bu sahədəki boşluğu doldurmuşdur.

Məktəb və mədrəsələrə və onların kitabxanalarına biganəlik hər dövrdə mövcud olmuşdur.

QTD-nin 1882-ci il hesabatında deyilirdi: «Qafqaz üzrə 1920 müsəlman məktəbi olmuşdur. Bunlardan 108-i Tiflis quberniyasında və Zaqatala dairəsində, 377-si Gəncə quberniyasında, 301-i Bakı quberniyasındadır. Göstərilən məktəblərin əksəriyyəti olduqca qaranlıq, soyuq, rütubətli, pis binaya və lazımsız mebelə malikdir» (bax:QDT popiçitelinin 1882-ci il hesabatı, T.1883-cü il, səh.179).

Öz köhnə təlimində qalan müsəlman (məktəb, mədrəsə və yeni yaranan müsəlman məktəbləri) məktəbləri Azərbaycan ictimaiyyətinin köməyi ilə XIX əsrin 70-ci illərindən başlayaraq artmağa başladı və onların nəzdində ictimaiyyətin köməyi ilə kiçik kitabxanalar təşkil edildi.

Həmçinin məktəbin yenidən təşkili və maddi bazasını (bina əldə etmək, kitabxana təşkil etmək, müəllim tutmaq) yaxşılaşdırmaq işində Azərbaycan ictimaiyyəti böyük rol oynadı. Bu dövrdə Azərbaycanda məktəblər yanında «Müsəlman məktəblərinə kömək cəmiyyəti» təşkil edilməyə başladı

Bu cəmiyyətin köməyi ilə 1860-cı illərdə Qafqaz üzrə 2757 müsəlman məktəbi təşkil edilmişdir. Onlardan 1880-ci ildə Gəncə quberniyasında 431, Bakı quberniyasında 323, Zaqatala dairəsində 92, bütün Qafqaz üzrə 1800, nəhayət, 1915-ci ildə yalnız hazırki Azərbaycan ərazisi üzrə 786 müsəlman məktəbləri fəaliyyətdə olub, onların nəzdində kiçik kitabxanalar mövcud idi.

**Müsəlman məktəb kitabxanaları və şagirdlərin sinifdənxaric mütaliələri haqqında aşağıdakıları qeyd etmək olar:**

1. Ucqarlarda maarifin inkişafına əhəmiyyət verməyən çar hökuməti yerli məktəblərə heç bir nəzarət etməyərək onlara dövlət xəzinəsindən çox az vəsait (XIX əsrin 90-cı illərindən sonra) buraxırdı.
2. Şagirdlərin sinifdənxaric mütaliəsinin tədris proqramına uyğunlaşdırılmasına səy güstərilmişdir.
3. Kitabxana fondunun azlığına baxmayaraq şagirdlər sinifdənxaric mütaliəyə ciddi yanaşmışlar və bədii yaradıcılıqlara-şer, hekayə, məruzə, referat yazmaq, teatr tamaşaları, deklamasiyalar, albomlar hazırlamaq, kitabların üzünü köçürmək və sair işlərə qoşulmuşlar.

Fəslin II yarımfəsli ***«Qəza məktəblərin kitabxanaları»*** adlanır.

1829-cu il Nizamnaməsinin təsdiqi ilə əlaqədar olaraq, binanın olub-olmamasına baxmayaraq, Azərbaycanda 1830-1838-ci illər arasında qəza məktəbləri açıldı və onların nəzdində kitabxanalar təşkil edildi (bax: cədvəl 1 və cədvəl 2). Qəza məktəb kitabxanaları 2 tipdə təşkil edilirdi: əsaslı və şagird kitabxanaları.

Azərbaycanda qəza məktəblərinin kitabxanaları Zaqafqaziyanın digər məktəblərindəki kitabxanalardan zəngin idi. Zaqafqaziyada mövcud olan 15 qəza məktəbinin kitabxanasında olan cəmi 3815 nüsxə kitabdan 1921-i

Azərbaycanda idi (bax: cədvəl 1). Bu da Azərbaycan ictimaiyyətinin məktəblərə köməyi nəticəsində olmuşdur.

1830-1852-ci illərdə Azərbaycanda dövlət məktəbləri olan 7 qəza (bax: cədvəl 2) məktəb kitabxanası fəaliyyət göstərirdi.

Qəza məktəblərinin kitabxanalarının kitab fondu əhali tərəfindən toplanmış ianə və  ayrı-ayrı şəxslərin göstərdiyi yardım hesabına zənginləşirdi.

Qəza məktəb kitabxanaları barədə aşağıdakıları demək olar:

1. Qəza məktəb kitabxanaları başqa kütləvi kitabxanaların təşkilinə təkan verdi. Belə ki, bu kitabxanalar oxucuların tələbini ödəmirdi. Təbii ehtiyacdan doğaraq ziyalılar ianə yolu ilə kütləvi kitabxanalar yaratmaq təşəbbüsündə bulunurdular. Belə kitabxanalardan biri 1859-cu il sentyabrın 15-də Şamaxıda təşkil edildi. Digəri isə 1868-ci il aprelin 28-də Gəncədə açıldı.

2. Qəza  məktəb kitabxanaları müəllim və şagirdlərlə bərabər şəhər və kənd ictimaiyyətinə də xidmət etmişdi.

3. Kitabxanaların kitab fondu zəif idi. Məsələn, 1845-ci ildə Gəncə qəza məktəbində bir şagirdə 1.7 nüsxə, 1865-ci ildə Şuşada bir şagirdə 1.2 adda kitab düşürdü.

4. Kitabxanalarda olan kitablar şagirdlərin bilik və yaş səviyyələrinə uyğun deyildi. Kitablar köhnə və məzmunsuz idi. Bədii ədəbiyyat  yox dərəcəsində idi.

III yarımfəsil ***«İbtidai məktəblərin kitabxanaları»*** adlanır. 1853-cü ilin oktyabrında təsdiq edilmiş yeni nizamnaməyə görə Azərbaycanda ibtidai şəhər məktəbləri açıldı və onların nəzdində kitabxanalar təşkil edildi. Bu ilk ibtidai məktəb kitabxanası idi (bax:cədvəl 3).

1861-ci il islahatı və Rusiyada kapitalizmin inkişafı ilə əlaqədar olaraq XIX əsrin 70-ci illərindən başlayaraq müxtəlif tip ibtidai məktəblər yarandıvəonların  nəzdində kitabxanalar da təşkil edilirdi. Belə məktəb və ya kitabxanaların sayı 1900-cu ildə Gəncə (Yelizavetpol) quberniyasında 91, Bakı quberniyasında 81 və Naxçıvan qəzasında 29olmuşdur. İbtidai məktəblərin kitabxanalarının sayına gəldikdə onlar ilbəil artaraq 1850-ci illərdən 1909-cu illər arasında olan müddətdə 3-dən 272-ə çatmışdır(buraya Naxçıvan qəzasında və Zaqatala dairəsində  olan məktəblər daxil deyildir.(bax: Cədvəl № 4)

1864-cü ilin iyulunda təsdiq edilmiş «İbtidai xalq məktəblərinə dair Nizamnamə»yə əsasən 1860-1870-ci illərdən başlayaraq yeni ibtidai məktəblər açılmağa başlandı. Açılan hər bir məktəbin tarixi ilə kitabxananın tarixi eyniyyət təşkil edirdi.

Sonradan açılan İbtidai məktəb kitabxanalarının fonduna dair arxiv sənədlərində və dövrü mətbuatda dəyərli məlumatlar vardır (bax: cədvəl 4)

İbtidai məktəb kitabxanaları aşağıdakı vəzifələri yerinə yetirirdi:

1.Kitabxanalar kitabları şagirdlərin yaş və bilik səviyyələrinə müvafiq olaraq seçib əldə etməli idi. Bu vəzifənin yerinə yetirilməsinə XMN yanında təşkil edilmiş Elmi Komitet və ya Pedaqoji Sovetlər, Tədris Dairə İdarəsi rəhbərlik edirdilər. 2.İbtidai məktəb kitabxanaları şagirdlərdə mütaliəyə həvəs oyatmalı, onlara məktəbdə verilən təlim və təhsili sinifdən və məktəbdənxaric mütaliə ilə genişləndirməli və möhkəmləndirməli idi. Mənbələrin birində deyilirdi: «Məktəb tikmək və orada oxumaq və birtəhər yazmaq kifayət deyildir, məktəbin vacib vəzifəsi şagirdin əqli və əxlaqi aləmini genişləndirməkdir». 3. Kitabxana şagirdlərə kitabdan müstəqil, şüurlu, bacarıqlı istifadə etmək vərdişi aşılamalı idi. 4. Geniş xalq kütlələrinin maariflənməsi ilə ibtidai məktəb kitabxanaları yalnız məktəblilərə yox, kənd əhalisinə-gənclərə və valideynlərə, məktəbin yetirmələrinə də xidmət etməli idi. 5. İbtidai məktəb kitabxanalarının vəzifələrindən biri də bütün il ərzində şagirdlərin mütaliəsinə müntəzəm və ardıcıl rəhbərlik etmək idi.

Kitabxanaların əsas işləri: kitabxanada xidmət işinin təşkili, ədəbi qiraətlər, albomlar tərtibi, söhbətlər, bədii-ədəbi gecələrin keçirilməsi, kitab tədavülü və s. idi ki, bu işlər də həm məzmunca, həm də kəmiyyət və keyfiyyətinə görə qəza məktəb kitabxanalarından irəlidə gedirdi.

İbtidai məktəb kitabxanaları haqqında aşağıdakıları qeyd etmək olar:

1. 1861-ci il islahatından sonra Çar Rusiyası kapitalizmin inkişafı ilə əlaqədar olaraq öz mənfəəti naminə ucqarlarda əhalinin elementar savad alması üçün digər məktəb tipləri kimi ibtidai məktəb şəbəkəsini də genişləndirdi və onların nəzdində kitabxanalar təşkil edildi. 2. 1850-ci illərdən 1909-cu illər arasında olan dövrlərdə ibtidai məktəb kitabxanalarının sayı yalnız Bakı və Gəncə quberniyalarında 3-dən 272-ə çatdı. 3. İbtidai məktəb kitabxanaları şagirdlərin təlim-tərbiyə işində başlıca rol oynamaqla bərabər geniş əhali kütlələrinin savadlanmasında böyük xidmət göstərmişdir. 4. Kitabxanalarda dərsliklər və sinifdənxaric mütaliə üçün kitablar az və keyfiyyətsiz olmuşdur. 5. Azərbaycanlılar üçün kitabxanalarda ana dilində dərslik və mütaliə kitabları yox dərəcəsində olmuşdur. 6. İbtidai məktəb kitabxanalarının apardığı işlərin məzmunu tarixi nöqteyi-nəzərdən qəza məktəb kitabxanalarından irəlidə idi. Lakin kitablar azlıq təşkil etmişdir və kitab tədavülü zəif olmuşdur (bax: cədvəl 5).

Fəslin IV yarımfəsli ***«Şəhər məktəblərinin kitabxanaları»*** adlanır. XIX əsrin 70-ci illərindən başlayaraq 31 may 1872-ci il əsasnaməsinə əsasən Azərbaycanda qəza məktəbləri əsasında Şuşada (01.06.1875),

Nuxada (01.07.1877), Şamaxıda (1874-1877), Naxçıvanda (06. 07. 1879), Gəncədə(01.09.1884), Zaqatalada(01.07.1886), Bakıda (biri 01.09.1889, ikincisi 31.05.1898) və Ordubadda(01.07.1897) yeni tip məktəblər-şəhər məktəbləri təşkil edildi. Onların sayı 1875 və 1911-ci illər arasında 6-dan 11-ə çatdı (Bax: cədvəl 6). Bu məktəblərin nəzdində əsaslı və şagird kitabxanaları fəaliyyət göstəriridi, kitab fondu baxımından şəhər məktəblərinin kitabxanaları digər tip məktəb kitabxanalarından zəngin idi (bax: cədvəl 6).

XIX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda da natamam orta (progimnaziya) və orta(gimnaziya) məktəblər açıldı və onların nəzdində kitabxanalar təşkil edildi. Onların sayı XIX əsrin 70-ci illərində 4 idisə, 1913-cü ildə 18-ə çatdı (bax: Cədvəl 7).

V yarımfəsli ***«Natamam orta və orta məktəblərin kitabxanaları»*** adlanır. 1864-cü il Nizamnaməsinə əsasən XIX əsrin 60-cı illərindən başlayaraq Azərbaycanda natamam orta və orta məktəblər açıldı və onların nəzdində əsaslı və şagird kitabxanaları təşkil edilirdi. Onların sayı XIX əsrin 70-ci illərində 4 idisə, 1913-cü ildə 18-ə çatdı (bax: cədvəl 7). Sonralardan uzaq şəhər və kəndlərdən gəlmiş şagirdlərin dərslərinə yaxşı hazırlaşmalarına kömək etmək məqsədi ilə məktəblərin nəzdində pansion kitabxanaları, kasıb şagirdlər üçün dərsliklər və kitab anbarı, sinif rəhbərlərinin təşəbbüsü ilə kiçik sinif kitabxanaları da təşkil edilirdi.

Natamam orta və orta məktəb kitabxanaları haqqında aşağıdakıları qeyd etmək olar:1. Natamam orta və orta məktəb kitabxanalrının sayı və onların kitab fondu ilbəil artmışdır. Onların sayı 1913-cü ildə 18-ə çatmışdır. Ancaq kitablar azlıq təşkil edirdi. Məsələn, Bakı qadın gimnaziyasının şagird kitabxanasında 1884-cü ildə bir şagirdə 0.2 adda, 0.8 nüsxə, 1890-ci ildə 2.2 adda, 3.6 nüsxə, 1913-cü ildə 4 adda, 11 nüsxə kitab düşürdü. Həmçinin mütaliə üçün nəzərdə tutulan kitabların əksəriyyəti şagirdlərin yaş və bilik səviyyələrinə uyğun deyildi. 2. Şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsi ilə əlaqədar olaraq natamam orta və orta məktəb kitabxanaları vasitəsilə aparılan işlər nümunəvi və rəngarəng olub, şagirdlərin təlim və tərbiyəsi işində başlıca rol oynamışdır. 3.Kitabxanaların iş üsulları vahid sistem təşkil etmirdi: kiçik bir məktəbdə hər sinif üçün ayrı kitabxanalar düzəldilmişdir, digərində onlar yaş dərəcələrinə görə, üçüncüsündə elmi ixtisaslar üzrə bölünmüşdür. Kitablar şagirdlərə ya sinif rəhbərləri, ya ixtisaslar üzrə fənn müəllimləri, ya da xüsusi kitabxanaçılar tərəfindən verilirdi. 4. Şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsinə zəif rəhbərlik edilirdi, bütün şagirdlər mütaliəyə cəlb edilmirdi. Bunun da iqtisadi səbəbi olmuşdur. Belə ki, Gəncə gimnaziyasından başqa heç bir məktəbdə kitabxanaçıya və

şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsinə rəhbərlik edən şəxslərə maaş verilmirdi. Kitabxana müdirləri yalnız cüzi mükafat alırdı.

Fəslin VI yarımfəsli ***«Bazargünü, dəmiryolu,sənət və dənizçilik məktəblərinin kitabxanaları»*** adlanır.

Rusiyada kapitalizmin inkişafı ilə əlaqədar olaraq XIX əsrin 70-ci illərinin sonlarından başlayaraq Azərbaycanda da bazargünü, dəmiryolu, sənət və dənizçilik məktəbləri yarandı, onların nəzdində kiçik kitabxanalar təşkil edildi.

Bazargünü məktəbləri kənd ibtidai məktəbləri nəzdində açılaraq yaşlı əhalinin savadlanması və ibtidai kənd məktəblərini bitirmiş gənclərin oxu və yazı savadlarının təkminləşməsi məqsədi güdürdü.

İlk dəmiryol məktəbləri Gəncədə(1888), Hacıqabulda(1893), Bakıda (1896), Ağstafada(1901) açılıb, onalrın nəzdində şagird kitabxnaları təşkil olundu.

Bu dövrdə Azərbaycanda 3 sənət (Gəncədə-1884, Zaqatalada-1882, Bakıda-1888), bir dənizçilik məktəbi (Bakıda-1881) açılmış, onların nəzdində həm şagird və həm də əsaslı kitabxanalar təşkil edilmişdir. Burada da kitablar tələbata uyğun deyildi (bax: cədvəl 8).

**III fəsil «Azərbaycan Xalq Cümhuriyyəti dövründə kitabxana siyasəti (1918-1920-ci illər) »** adlanır. Bu fəsil 2 yarımfəsildən ibarətdir: I yarımfəsil «*Xalq maarifinin inkişafı və islahatlar»*, II yarımfəsil ***«Məktəb kitabxanaları fondlarının təşkili»*** adlanır. AXC-in qurulması və 23 aylıq fəaliyyəti müddətində milli müstəvidə xalq maarifinə dair həyata keçirdiyi tədbirlərdən danışılır.

Məktəb ktabxanaları fondlarının təşkili AXC-nin yarandığı ilk günlərdən başlayaraq həyata keçirdiyi mədəni-maarif tədbirləri kitabxana işinin inkişafı üçün də əsaslı zəmin yaratdı. Kitabxana işi bu dövrdə həyata keçirilən bütün sosial-mədəni və maarifçilik işlərinin mühüm tərkib hissəsinə çevrilmişdir.

Bu dövrdə məktəb kitabxana fondu aşağıdakı mənbələr vasitəsilə təşkil edilib zənginləşirdi: 1.Təhsil ocaqları kitabxanalarının respublikada nəşr edilən çap əsərləri ilə pulsuz və məcburi təminatı. 2.Xarici ölkələrdən kitab almaqla məktəb kitabxanalarının kitablarla təminatı. 3. Ölkə daxilində ehtiyatlardan istifadə etmək yolu ilə kitabxanaların kitab fondunun zənginləşdirilməsi, yəni öz fəaliyyətini dayandırmış məktəblərin kitabxa-nalarına kitab anbar və mağazalarında saxlanılan kitabların paylanmasının təşkili. 4. Ayrı-ayrı şəxslərin, müəssisələrin, xeyriyyə cəmiyyətlərinin kitabxanalarında olan kitabların toplanaraq kitabxanalara paylanması həyata keçirildi. Lakin Sovet işğalı nəticəsində AXC dövründə aparılan məktəb işində islahatları bərbad vəziyyətə düşdü.

Tədqiqat nəticəsində aydın oldu ki, məktəb kitabxana işinin tarixi XIX əsrin əvvəllərindən başlayaraq məktəb və mədrəsələrdən başqa 5 tip dövlət məktəbi kitabxanalarını əhatə etmişdir(qəza məktəbləri, ibtidai məktəblər, şəhər məktəbləri, orta məktəblər, peşə məktəbləri).

IV fəsil **«Sovet Rusiyası işğalından sonrakı dövrdə Azərbaycanda məktəb kitabxanaları (1920-1945-ci illər)»** adlanır. Fəsil 3 yarımfəsildən ibarətdir.

Fəslin ***«Sovet hakimiyyətinin ilk dövründə Azərbaycanda məktəb kitaxanalarının və sinifdənxaric mütaliənin təşkili (1920-1928-ci illər)»*** adlanan birinci yarımfəslində qeyd edilir ki, N.Nərimanovun başçılığı ilə Azərbaycanda Sovet Hakimiyyətinin maarif sahəsində apardığı ilk tədbirləri nəticəsində 1920-ci ildə 75515 şagirdi olan 937 ibtidai məktəb, 3285 şagirdi olan 28 orta məktəb işə başladı və 8 məktəb kitabxanası fəaliyyətdə oldu. 1923-1924-cü dərs ilində Azərbaycanda 8 məktəb və digər kütləvi kitabxanalarda 464389 kitab vardı ki, onun 3800-ü Azərbaycan dilində idi. Bütün kittabxanalarda oxucuların sayı isə 54307 nəfər olmuşdur. Fəslin II yarımfəsli ***«1929-1941-ci illərdə məktəb kitabxanaları şəbəkələsinin təşkili"*** adlanır. Burada I (1929-1933) və II (1934-1938) beşilliklər dövrü məktəb kitabxanalarının məhsuldar dövrü kimi qiymətləndirilir. 1935-ci ilin yanvarında Azərbaycanda 625 kitabxana olmuşdur ki, bunlardan 278-i kütləvi, 212-si məktəb və uşaq kitabxanaları olmuşdur. 1935-ci ildə 20 yeni kitabxana yaradıldı və 1936-cı ildə rayonlarda 87 məktəb kitabxanası təşkil edildi.

Az.SSR Xalq Komissarları Soveti 1937-ci il 17 may tarixli «Məktəb kitabxanaları şəbəkəsinin genişləndirilməsi və onlar üçün ədəbiyyat nəşri haqqında» 13 maddədən ibarət 3177 saylı qərar qəbul etdi. Həmçinin 1937-ci ilin noyabrında Az. SSR Xalq Komissarları Soveti «Məktəb kitabxanalarının təşkilinə dair tədbirlər və onlar üçün ədəbiyyat nəşri haqqında» adlı yeni bir qərar da verdi. Bu qərarların məktəb kitabxanalarının inkişafında mühüm rol oynadı. Belə ki, 1938-ci ilin yanvarında kütləvi və məktəb kitabxanalarının sayı 4098-ə, 1939-cu ilin yanvarında isə 3228 oldu.

1938-ci ilin 1 yanvarında məktəb kitabxanalarının ayrıca sayı 1628-ə, kitab fondu isə 386204 nüsxə idi. 43596 nüsxə kitaba malik 810 ibtidai məktəb kitabxanası, 188860 nüsxə kitaba malik 646 natamam orta məktəb kitabxanası, 153746 nüsxə kitaba malik 172 orta məktəb kitabxanası fəaliyyətdə idi.

III beşilliyin (1938-1943) ilk illərində məktəb kitabxana şəbəkəsi daha da artaraq 1940-cı ildə Azərbaycanda 1367321 nüsxə kitab fonduna malik olan 2480 məktəb kitabxanası fəaliyyət göstərirdi.

Fəslin III yarımfəsli ***«1941-1945-ci illərdə məktəb kitabxanaları və sinifdənxaric mütaliənin müharibə şəraitinə uyğunlaşdırılması»*** adlanır ki, Böyük Vətən müharibəsi (1941-1945) illərində Azərbaycanda məktəb kitabxanaları və onların kitab fondu böyük tənəzzülə uğradı. Müharibənin əvvəlki 3 ili ərzində məktəb kitabxanalarının sayı 4 dəfə azalmışdır. 1944-cü ildə 544 məktəb kitabxanası fəaliyyət göstərirdi. Onlardan 108-i Bakıda, qalanları isə rayonlarda idi.

Müharibə illərində məktəb kitabxanaçıları qarşısında şagirdləri vətənpərvərlik, düşmənə nifrət və xalqlar arasında dostluq ruhunda tərbiyə etmək kimi mühüm vəzifyələr dururdu. Qeyd edilən vəzifələri məktəb kitabxanaları lazımınca yerinə yetirirdi. Təsadüfi deyildir ki, 1942-ci ilin avqustunda xalq maarifi sahəsindəki xidmətlərinə və fədakarlıqla işlədiklərinə görə 9 nəfər məktəb kitabxana işçisinə Azərbaycanın «Əməkdar müəllimi» fəxri adı verilmişdir.

V fəsil **«Müharibədən sonrakı dövrdə məktəb kitabxanalarının inkişafı (1946-1991-ci illər)»** adlanır. Burada 6yarım fəsil mövcuddur. I yarımfəsil ***«1946-1960-cı illərdə məktəb kitabxanaları»*** adlanır. Bu dövrdə bədii ədəbiyyatın mütaliəsi ön plana çəkilir.

Bu dövrdə məktəb kitabxanası ilə bağlı əsas əlamətdar hadisələrdən biri MN məktəblər idarəsi tərəfindən 1947-ci ildə «İbtidai, yeddiillik və orta məktəblərin kitabxanaları» haqqında əsasnamənin hazırlanıb, Azərbaycan və rus dilində çap etdirilməsi olmuşdur. Əsasnamədə kitabxanaçıya pedaqoji şuranın üzvü olmaq hüququ verilirdi.

Müharibədən sonra sosialist xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi dövründə (1946-1950) **IV** beşillikdə məktəb kitabxanalarının inkişafı sürətləndirilirdi,1945-ci ildə 1630 ibtidai məktəbin 260-da, 1342 yediillik məktəbin 827-də və 432 orta məktəbin 417-də, yəni cəmi 1504 məktəb kitabxanası var idisə, artıq 1946-cı ildə bunların sayı 1580-ə çatmışdır.

1946-1950-ci illəerdə məktəb kitabxanalarının kitab fondunun zənginləşməsinə dövlət tərəfindən ciddi fikir verilirdi. 1947-ci ildə Azərbaycanın 42 RXMŞ məktəb kitabxanalarına kitab almaq üçün Azərkitabla müqavilə bağlandı.

Sosializm quruculuğunun başa çatdırılması dövründə (1951-1960) məktəb kitabxanalarının təşkili dövlətin diqqət mərkəzində olmuş, onların şəbəkəsi daha da genişlənərək 1959-cu ildə sayı 2550-ə çatmışdır. Bu

kitabxanaların sinifdənxaric oxu üçün alınmış kitabların sayı 3.616.190 nüsxə idi. Məktəblərin sayı isə 3749 olmuşdur.

Qeyd edilən dövrdə məktəb kitabxanalrının vəzifəsi şagirdlərə təlim materiallarının mənimsədilməsində yaxından kömək etməklə bərabər, onların ümumi dünyagörüşünü, estetik və əmək tərbiyəsinin təkmilləşdirilməsində fəal rol oynamaqdan ibarət idi. Lakin nöqsan və qüsurlar davam edirdi. Bunu nəzərə alaraq Az SSR Maarif Nazirliyi 1954-cü ilin oktyabrında 8 maddədən ibarət qərar qəbul etdi. Bu qərarın məktəb kitabxanaları həyatında mühüm rolu oldu. Məktəb kitabxanalarının işi kəmiyyət və keyfiyyətcə yaxşılaşdı.

Bu dövrün əlamətdar hadisələrindən biri Sov.KP MK-nın «Ölkədə kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» 22 sentyabr 1959-cu il qərarı oldu. Qərarla əlaqədar olaraq məktəb kitabxanaları işlərini hər cəhətdən yenidən qurmalı oldular.

***«XX əsrin 60-cı illərində (1961-1965-ci illər) məktəb kitabxanaları işinin genişlənməsi dövrü»*** adlanan II yarımfəsildə dövlət tərəfindən yaxından nəzarəti və kitabxanaların əməli fəaliyyətlərindən geniş danışılır.

Yeri gəlmişkən, **VII-X** beşilliklər ərzində (1959-1980-ci illər) Azərbaycanda məktəb kitabxanaları kəmiyyət və keyfiyyətcə inkişaf etmişdir.

**VII** beşilliyin ilk illərində (1961-1965) məktəb kitabxanalarının tarixində əlamətdar hadisələrdən biri də M.F.Axundov adına Respublika Mərkəzi Dövlət Kitabxanasında 29 mart 1962-ci ildə çağırılmış uşaq və məktəb kitabxanaçılarının çağırılmış müşavirəsi idi. Müşavirədə Bakının 200-dən artıq kitabxanası iştirak etdi, Bakının 1, 27, 48, 63, 81, 132, 134, 151 saylı məktəb kitabxanalarının diqqətəlayiq işləri təriflәndi.

Bu dövrdə məktəb kitabxanalarına dövlətin qayğısı daha çox artmışdır. Artıq 1955-ci ilin sonunda bütün məktəblərdə kitab fondu 5 milyon nüsxəyə çatmışdır ki, bunun da 3 milyon nüsxədən artığı ancaq sinifdənxaric oxu üçün olmuşdur.

V fəslin III yarımfəsli ***«1966-1970-ci illərdə məktəb kitabxanaları yeni vəzifələr qarşısında»*** adlanır.

1966-1970-ci illərin sonlarında məktəb kitabxanalarının geniş şəbəkəsi yaradılmışdır. 1969-cu ildə Azərbaycan SSR Maarif Nazirliyi sistemində olan 3406 məktəb kitabxanasının fondu 2 milyon nüsxədən çox olmuşdur. Bu bölmədə məktəb kitabxanaları qarşısında ciddi vəzifələr qoyulur və təlim-tərbiyə işində onların rolu qiymətləndirilir, əməli işlərin həyata keçirilməsi vurğulanır, əlaqədar təhsil müəssisələrinin məsuliyyəti qeyd edilir.

Fəslin IV yarımfəsli ***«1971-1975-ci illərdə məktəb kitabxanalarının şəbəkəsi kəmiyyət və keyfiyyətcə yeni yüksəlişdə»*** adlanır ki, burada məktəb kitabxanaları həm sayca, həm də təlim-tərbiyədə apardığı işlər səciyyələnir və müvəffəqiyyətlər qeyd edilir.

1971-1975-ci illər birinci ilində əvvəlki dövrlərdə olduğu kimi məktəblilərin sinifdənxaric oxusu gündəmə gəlmişdir.

Sov.İKPMK-nın «Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında» 1974-cü ilin may ayında qəbul etdiyi qərar ölkədə kitabxana işində böyük dönüş yaratdı.

Şagirdlərin mütaliəsinin vahid iş sistemi əsasında aparılmasında 1975-ci ildə SSRİ Maarif Nazirliyi tərəfindən təsdiq olunmuş "Məktəb kitabxanası haqqında nümunəvi Əsasnamə" başlıca proqram idi.

Fəslin V yarımfəsli ***«Məktəb kitabxanaları şəbəkəsinin formalaşması (1976-1980-ci illər)»*** adlanır. Burada Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Ümumtəhsil məktəbləri şagirdlərin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında" qərarı bu dövrdə əlamətdar bir hadisə oldu. Tədbir 6 dərs ili üçün nəzərdə tutulurdu:1)1978-1979- cu dərs ilində I sinif şagirdləri üçün; 2)1979-1980-ci dərs ilində **II-III** sinif şagirdləri üçün; 3)1980-1981-ci dərs ilində **IV-V** sinif şagirdləri üçün; 4)1981-1982-ci dərs ilində **VI-VII** sinif şagirdləri üçün; 5)1982-1983-cü dərs ilində **VIII-IX** sinif şagirdləri üçün; 6)1983-1984-cü dərs ilində **X-XI** sinif şagirdləri üçün.

Fəslin VI yarımfəsli ***«Məktəb kitabxanalarının metodik təminat sisteminin təşkili (1981-1991-ci illər)»*** adlanır. Bu dövrdə məktəb kitabxanaları bir çox çətinliklərlə rastlaşmış və onların öhdəsinə düşən məqsəd və vəzifələr yerinə yetirilmişdir. Burada 1983-cü ildə Azərbaycan Maarif Nazirliyinin təşkil etdiyi «Azərbaycan Respublikası Elmi- Pedaqoji Kitabxanası» (AREPK) əhəmiyyətli metodik təminat rolu oynamışdır.

XX əsrin 80-ci illərində AREPK-nin metodik fəaliyyətinin əsas istiqaməti ümumtəhsil müəssisələri kitabxanalarını fəaliyyətini tənzimləyən normativ sənədlərin və digər təlimat xarakterli metodik materialların tərtibatından ibarət olmuşdur. AREPK müasir dövrdə 5 mindən artıq kitabxananın və təqribən 36 milyon çap vahidini birləşdirən ümumtəhsil müəssisələri kitabxanalarının metodik təminat sistemini təşkil edir. Bununla AREPK-nin fəaliyytəi nəticəsində ümumtəhsil məktəbləri kitabxanaları metodik təminat sisteminin əsası qoyulmuş və normativ bazası yaradılmışdır.

Bu dövrdə məktəb kitabxanalarının həyatında əsas əlamətdar hadisələrdən biri də o oldu ki, Sov. İKP Mərkəzi Komitəsinin və SSRİ Nazirlər Sovetinin «Ümumtəhsil məktəbləri şagirdlərin təlimi, tərbiyəsini və əməyə hazırlanmasını daha da təkminləşdirmək haqqında»kı qərarında

şagirdlərin peşə maarifi diqqət mərkəzində olmuşdur. Bu sahədə məktəb kitabxanalarının öhdəsinə də böyük vəzifələr düşmüşdür. **XI** beşilliyin (1981-1985) **I** ilində əvvəlki dövrlərdə olduğu kimi məktəblilərin sinifdənxaric oxusu gündəmə gəlmişdir. Bu dövrdə aşağıdakı vəzifələr qarşıya qoyulurdu:

- şagidlərin biliklərə marağının inkişafına və onların öz biliklərini müstəqil artırmaq vərdişləri əldə etməsinə nail olmaq üçün ədəbiyyat müəllimləri yaradıcılıq və təşəbbüskarlıqla işləməli, sinifdənxaric oxunu elmi-pedaqoji əsaslar zəminində təşkil etməlidir;
- müəllim şagirdlərin öz biliklərini müstəqil surətdə artırmalarına, ədəbiyyat dərslərində qazandıqları biliklərlə qane olmamalarına çalışmalı, onların sinifdənxaric oxusunu stimullaşdırmalı, müstəqil mütaliə zamanı əldə etdiyi biliklərdən maksimum bəhrələnmələrinə səy göstərməlidir («Azərb.müəl.», qəz.13 noyabr 1981, №-91, səh-3).

1981-1985-ci illərdə məktəb kitabxanalarına dövlət qayğısı məqsədyönlü olmuşdur. Azərbaycan SSR-də hər il 17 milyon nüsxə kitab çap olunmuşdur.

**XII** beşillikdə (1986-1990) məktəblilərin asudə vaxtlarının təşkilinə diqqət yetirilirdi. Arzərbaycanda 15 milyon nüsxədən artıq kitab fonduna malik olan 3675 məktəb kitabxanası şagirdlərə xidmət edirdi.

Məktəb kitabxanaları məktəblərin pedaqoji kollektivi ilə birlikdə oxucuların yaradıcı ziyalılarla, istehsalat və kənd təsərrüfatı qabaqcılları, əmək və müharibə veteranları ilə görüşlərini, oxucu konfransları keçirmiş, kitab müzakirələri aparmışlar.

Bununla yanaşı məktəb kitabxanalarının nöqsanları da az olmamışdır. Məktəb kitabxanaları dövrün tələbini lazımınca yerinə yetirə bilməmişdir. Belə ki, şagirdlərdə mütaliəyə, o cümlədən tədris, bədii kitab və ictimai-siyasi ədəbiyyatla müstəqil işə maraq zəif olmuşdur.

Bu dövrdə kadr siyasəti məktəb kitabxanalarının əsas problemlərindən biri olaraq qalırdı. 1987-1988-ci dərs ilinin əvvəlində 3173 məktəb kitabxanasında işləyənlərin 728-i ali, 229-u natamam ali, 1211-i orta ixtisas, 1005-i orta ümumtəhsilli olmuşdur. Ümumiyyətlə, məktəb kitabxanalarında işləyənlər arasında ixtisaslı kitabxanaçılar azlıq təşkil etmişdir.

Bütün bu çatışmazlıqları nəzərə alaraq Azərbaycan SSR Maarif Nazirliyinin 6 iyul 1988-ci il tarixdə çağırılmış kollegiyası məktəb kitabxana işinin fəaliyyətini əsaslı surətdə yenidən qurmaq və planauyğun şəkildə inkişaf etdirmək məqsədilə təcili və səmərəli qərarlar vermişdir.

## TƏDQİQATA DAİR ÜMUMİ NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

1. Alban məktəblərinin və onların kitabxanalarının təşkilində Alban çarlarının, xüsusən III Vaçaqanın (çarlığı 487-510) və Cavanşirin (ömrü 635-681) böyük xidmətləri olmuşdur. Kitabxanalarda 5 elm sahəsi üzrə ədəbiyyat toplanır (dini etiqad ədəbiyyatı, hüquqşünas ədəbiyyatı, tarixi salnamə və xronoloji ədəbiyyat, bədii ədəbiyyat, qrammatika ədəbiyyatı) və gənc nəslə təlim edilirdi və onlardan məmurlar hazırlanırdı.

2. Məktəb və mədrəsə kitabxanalarının tarixi onların yaranma tarixi ilə sıx surətdə bağlı olub, eyniyyət təşkil etmişdir.

3.VII əsrdən başlayaraq XIX əsrə qədər məktəb və mədrəsələr uzun zaman Azərbaycanda yeganə təhsil ocaqları olmuşdur. Kitabxanalar məktəblərdə və məscidlərdə, əksər hallarda isə mollaların evlərində təşkil edilirdi.

Araşdırmalardan aydın oldu ki, məktəb və mədrəsələrdə təlim ərəb və fars dilində aparıldığından onların kitabxanalarında olan kitablar da ərəb və fars dilində olmuşdur. Lakin XIX əsr Azərbaycan maarifpərvərləri və pedaqoqlarının təşəbbüsü ilə ana dilində dərslik və mütaliə kitabları yeni yaradılan məktəb və mədrəsə kitabxanalarının kitab fondunu zənginləşdirmişdir.

Bu kitabxanaların təsiri ilə Azərbaycanda rus dili və qabaqcıl Avropasayağı rus mədəniyyəti yayıldı.

4. Ən qədim zamanlardan Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi dövrünə qədər Azərbaycanda çapçılıq işi zəif inkişaf etmişdir. Şagirdlərə lazım olan dərsliklər və s. əsərlərin üzləri xəttatlar tərəfindən köçürülürdü. Ona görə də əlyazmalardan ibarət olan bu tədris vəsaitləri azlıq təşkil edirdi.

5. Dövrün ictimai – iqtisadi və siyasi vəzifəsi iləəlaqədar olaraq kitabxana fondunun çox hissəsini dini kitablar təşkil edirdi.

6. Məktəb və mədrəsə kitabxanaları ardıcıl surətdə inkişaf etməmişdir.

7. Pedaqoji kollektivin məktəb kitabxanası ilə birgə fəaliyyətinin təşkilinə cəhd göstərilmişdir. Məktəb kitabxanası peşələrin təbliğ edilməsində pedaqoji kollektivə yaxından kömək etmişdir.

8. Oxucu-şagirdin dünyagörüşünün formalaşmasında, elmlərin əsaslarının öyrənilməsində və ictimai hadisələrin mahiyyətinin açılmasında kitab mühüm vasitə kimi çıxış etmişdir.

9. Məktəb kitabxanalarında fərdi və kütləvi işlərin nəticəsi olaraq şagirdlər ən vacib və maraqlı kitabları mütaliə etmiş, elmi-texniki tərəqqi zəminində təhsildə aldıqları bilikləri genişləndirmiş və zənginləşdirmişlər.

Tədqiqat nəticəsində aydın oldu ki, məktəb kitabxanalarının iş üsulu get-gedə təkmilləşmiş, kitab tədavülündən başlayaraq teatr tamaşalarının verilməsinə qədər yüksəlmişdir.

Bir çox nöqsan və qüsurlarına baxmayaraq məktəb kitabxanalarının Azərbaycanda məktəb təhsilinin və təlim keyfiyyətinin yüksəldilməsində, şagirdlər arasında rus və xarici dillərin öyrənilməsində, şəhər və kənd sakinləri arasında elmin, mədəni-maarif işinin yayılmasında əhəmiyyətli rol oynamışdır.

10. Məktəb kitabxanalarının inkşafında və onların işlərinin təkmilləşdirilməsində dövlət qayğısının və görkəmli maarif və mədəniyyət xadimlərinin pedaqoji fikirlərinin başlıca rolu olmuşdur.

11. Məktəb kitabxanasının apardığı tədbirlər fənlərin proqram materiallarının zənginləşdirilməsinə xidmət etmişdir, şagirdlərin dərslərdə aldıqları bilikləri genişləndirmək vasitəsi kimi çıxış etmişdir. Bu da məktəb pedaqoji kollektivinin kompromis fəaliyyətləri nəticəsində əldə edilirdi.

12. Kitabxana işinin təşkili tələb edir ki, şagirdlərin arzu və cəhdləri, maraq və qabiliyyətləri hesaba alınsın. Ona görə şagirdlərin mütaliə məsələlərinə dair sorğularını, fərdi xüsusiyyətlərini öyrənmək məqsədi ilə müxtəlif iş üsulları, forma və vasitələri tətbiq etmək lazım gəlmişdir

13. Təlim keyfiyyətinin yüksəldilməsi məqsədi ilə məktəb kitabxanasının apardığı işlərdə ciddi çatışmazlıqlar olmuşdur. Bir tərəfdən kitabxana işçilərinin ixtisas təhsilinin olmaması, digər tərəfdən kitabxanaların maddi-texniki bazasının zəifliyi, həmçinin onların maddi təminatının lazımı dərəcədə olmaması; sinifdənxaric oxuya dair kitabların kifayət qədər olmaması; onların forma və məzmunca yararsız olması mütaliə mədəniyyətinin təşkilinə mənfi təsir göstərməyə bilməzdi.

Tədqiqatdan aydın olur ki, hansı məktəblərdə kitabxanaların kitab fondu zəngin idisə, orada şagirdlərin mənimsəmə faizi də yüksək olmuşdur. Məsələn, 1885-ci ildə 194 şagirdi olan Naxçıvan şəhər məktəbinin şagird və əsaslı kitabxanasında 3973 nüsxə kitab olmuşdur ki, orada hər şagirdə 20.4 nüsxə kitab düşürdü. Məktəbin illik müvəffəqiyyəti 70% təşkil edirdi. Həmin ildə 165 şagirdi olan Şamaxı şəhər məktəbinin şagird və əsaslı kitabxanasında 1486 nüsxə kitab olmuşdur ki, orada hər şagirdə 8.9 nüsxə kitab düşürdü. Məktəbin illik müvəffəqiyyəti 54 % olmuşdur.

Məktəblərdə kitabxana xidməti çox zəif olmuşdur. Məsələn, 1909-cu il məlumatına görə ibtidai məktəb kitabxanalarında bir kitab il ərzində orta hesabla 0.68 dəfə tədavül etmişdir (bax: Cədvəl 5).

14. Tədqiqatdan aydın oldu ki, şagirdlərin mütaliə mədəniyyətinin formalaşması üçün həm pedaqoji kollektivin, həm də kitabxanaçının ciddi və ardıcıl planlı iş sistemi labüddür. Bu iş sistemini həyata keçirmək üçün

kitabxanaçılıq və biblioqrafiya biliklərinin həm tərbiyəçilərə, həm də şagirdlərə tədris olunması irəli sürülürdü.

15. Kitabxanada kitabların tövsiyə olunması və mütaliənin təşkili sahəsində məktəblilərin yaş və fərdi xüsusiyyətlərinə və tövsiyə olunan kitabın xüsusiyyətlərinə uyğun olaraq müxtəlif üsul və metodlar tətbiq edilmişdir:a) mütaliə olunan kitabların məqsədyönlü seçilməsinə, oxucularda maraq və səylərin inkişafına, oxucuların mütaliə texnologiyasının təkmilləşdirilməsinə və şagirdlərin marağının yüksəldilməsinə məqsədi ilə xidmət edən fərdi söhbətlər; b) kataloqlardan, göstəricilərdən, sərgilərdən, viktorinalardan, guşələrdən və s. yaradıcı şəkildə istifadə etməyə xidmət edən kollektiv söhbətlər; c) kitabların təbliğində əvəzedilməz rol oynayan plakatlar, tematik guşələr, tövsiyə olunan ədəbiyyat siyahısı və s.; ç) məktəb kitabxanaları yalnız kitabların və dərsliklərin saxlanmasına və mühafizə edilməsinə xidmət etməmiş, həmçinin onlar XIX əsrin sonlarına qədər coğrafiya, tarix, fizika, kimya, biologiya və.s fənlərə dair vəsaitlərin saxlanmasına və mühafizə edilməsinə də xidmət etmişdir.

16. Oxunmuş materialın məzmunu üzrə rəylər (yazılı və şifahi), referatlar, annotasiyalar, məruzələr, illustrasiyaların hazırlanmasında şagirdlərə kömək etmək üçün fərdi və kütləvi iş aparmaq, ən yaxşı iş üçün müsabiqə keçirmək, tədbirlərə daha çox şagird cəlb etməyin mümkünlüyü aşkar edilmişdir.

Sinifdənxaric oxu üzrə kitabların mütaliəsi zamanı şagirdlərin yaş xüsusiyyətlərinin hökmən nəzərə alınması məktəb kitabxanasının işlərinin səmərəliyini büruzə verir.

17. Müəllimlərin metodiki, pedaqoji ustalığının  inkişafında məktəb kitabxanaçısının xidməti böyükdür. Kitabxanaçı metodiki guşələr təşkil etmiş, yeni pedaqoji və metodiki ədəbiyyatı təbliğ etmişdir.

18. Sovet dövründə ana dilində dərslik və sinifdənxaric mütaliə işinə qayğı dövlət səviyyəsində olmuşdur. Bu baxımdan məktəb kitabxanalarının işi dərindən araşdırılmış və nəzərdə tutulan məqsədə nail olunmuşdur.

Şagirdlərin dərslərdə aldıqları bilikləri zənginləşdirmək üçün məktəb kitabxanası I-XI (I-X) sinif şagirdləri ilə işlər aparmalı olur. Mütaliə işinin təşkilinə müxtəlif metod və üsullardan istifadə etmək lazım gəlir ki, bu da pedaqoji kollektiv və valideynlərlə sıx əlaqə şəraitində yerinə yetirilirdi.

Həmin metod və işlərdən qeyd etmək olar:

a) oxunması məsləhət görülən kitabların siniflər üzrə dərs ilinin əvvəlində siyahısının tərtibi və onların təbliği. Bu məqsədlə tövsiyə siyahıları, divar qəzetləri, bülletenlər, foto-montajlar və sair təlimatlar hazırlanıb gözəçarpan yerlərdən asılırdı.

b) oxunacaq və oxunmuş kitablar haqqında söhbətlər və müsahibələr, kitab müzakirələri, kitab sərgiləri, disputlar, səhərciklər, gecələr, oxucular konfransları, görüşlər və s. aparılırdı.

c) mütaliənin səmərəliyi baxımından uşaqların fərdi və yaş xüsusiyyətlərinə uyğun kitabların seçilməsi başlıca vəzifələrdən biri uşağın nə ilə maraqlandığı, hansı kitablara meyl göstərildiyi əsas eksperiment obyekti kimi nəzarətdə olmuşdur.

I-IV siniflər üçün kitablar,V-VII siniflər (V-VIII) üçün kitablar, VIII-X(IX-XI) siniflər üçün kitablar.

19. Şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsinin müvəffəqiyyətli keçməsi üçün məktəb kitabxanalarının kütləvi kitabxanalar və digər ictimai kitabxanalarla əlaqəsi olmuşdur.

20. a) məktəb kitabxanaçısının fənn müəllimləri ilə əlbir işləməsi, onun tədris proqramına uyğun ədəbiyyat seçməsi və onların təbliği sahəsində gördüyü işlər böyük əhəmiyyət kəsb etmişdir. Sinifdənkənar mütaliə işində kitabxanaçı nəinki müəllimlərə kömək etmiş, həm də bu işin təşəbbüsçüsü və təşkilatçısı olmuşdur.

b) kitab müzakirələrinin, disputların, oxucu konfranslarının keçirilməsi, yubileylərlə əlaqədar divar qəzeti, bülletenlər, fotomontajlar və albomlar tərtibi şagirdlərin əmək vərdişlərini artırmış, elmi və təşkilati yaradıcılıqlarını inkişaf etdirmiş və təlim prosesində aldıqları bilik, bacarıq və vərdişləri möhkəmləndirmiş və zənginləşdirmişdir.Onlarda bədii və əqli tərbiyə formalaşmışdır.

c) təlim prosesinə yaxından kömək etməkdə məktəb kitabxanalarının rolu böyükdür. Məktəbin kitabxanaçısı bu işdə aparıcı rol oynamışdır.

21. Məktəb kitabxanaçıları məktəbin tərbiyə üzrə təşkilatçılarının təlim-tərbiyə üzrə direktor müavinlərinin məktəb pedaqoji kollektivinin məktəbdən və sinifdənxaric mütaliə zamanı şagirdlərin mütaliə prosesini o cümlədən oxucuların kitablara və dərslərə qayğılı münasibət bəsləmələrinə aid fəaliyyətlərini istiqamətləndirmişlər, şagird ictimai təşkilatları ilə birlikdə dərsliklərin daha yaxşı qorunub saxlanılmasına dair məktəbdaxili yarışların, müsabiqələrin, baxışların təşkil olunub keçirilməsi üçün müvafiq şərtləri hazırlayıb məktəb pedaqoji şurasında müzakirə edilməyə təqdim etmişlər. Kiçik yaşlı məktəblilər arasında sinif müəllimləri, pioner və komsomol fəalları vasitəsilə “Kitab dostları”, “Kitablara yardım”, “Kitabsevərlər”, “Kitabları müalicə edirik”, “Cildçilik”, “Cildçilər” dərnəklər və orada fəallar dəstələri təşkil edilmişdir.

22. Sinif və fənn müəllimləri şagirdlərin oxucu formullarının vaxtında tərtib olunmasına kitabxanaçılara yaxından rəhbərlik etmişlər.

23. Şagirdlərin peşəyönümündə və ümumiyyətlə, təlim-tərbiyə işində, sinifdənxaric tədbirlərdə məktəb kitabxanasının öhdəsinə böyük vəzifələr və məsul işlər düşürdü. Kitabxanaçı dərslik fondunun yaradılması və bu fonddan düzgün istifadə edilməsində, bədii ədəbiyyat vasitəsilə şagirdlər arasında elmi biliklərin təbliğ edilməsində və onlar tərəfindən müəyyən bir peşənin seçilməsində pedaqoji kollektivə yaxından kömək etmişdir.

24. a) məktəb kitabxanalarının bir çoxu şagirdlər arasında bir qayda olaraq müntəzəm iş aparmamışlar: a) bir sıra məktəblərdə sinifdənxaric oxu və mütaliə mədəniyyəti haqqında pedaqoji şura və istehsalat müşavirələrində məsələ müzakirə olunmamışdır; b) məktəbdə sinifdənxaric oxu və mütaliə mədəniyyətinin inkişafına valideynlərin köməyindən az istifadə olunmuşdur; c) məktəb kitabxanalarının bir çoxunun lazımi binası olmadığından kitablar, qəzet və jurnallar kiçik bir otağa, yaxud dəhlizə yığılırdı, şagird və müəllimlərin onlardan istifadə etməsinə çətinliklər yaranırdı.

25. Məktəb kitabxanasının işinin pedaqoji şuralarda və direktoriyanı müşavirələrdə müzakirəsi müsbət nəticə verirdi, şagirdlərin sinifdənxaric mütaliəsinin təşkili üçün tövsiyələr hazırlamağa kömək edirdi.

Şagirdlərdə mütaliə mədəniyyətinin formalaşması və inkişafının bütün mərhələlərində fənn müəllimləri, sinif rəhbərləri, şagird təşkilatları, məktəb rəhbərləri və valideynlərin qarşılıqlı fəaliyyəti çox mühüm rol oynamışdır.

Təlim və tərbiyə keyfiyyətini yüksəltmək məqsədilə əsərin ideya istiqamətini, onun tərbiyəvi vəzifələrini oxuculara çatdırmaq, onların yaş, inkişaf və maraqlarını nəzərə almaqla onlara diferensial və fərdi yanaşmaq məktəb kitabxanaçısı üçün zəruri olmuşdur.

26. Məktəb kitabxanasının başlıca vəzifələri şəxsi təhsil üsullarını təkmilləşdirmək prosesini sistemli şəkildə istiqamətləndirmək, şagirdlərdə mütaliə mədəniyyəti və bilik dairəsinin genişlənməsinə səy göstərməyi tərbiyə etməkdən ibarət olmuşdur. Bu vəzifələrin yerinə yetirilməsində aşağıdakılara xüsusi diqqət yetirilirdi: a)uşaqları müntəzəm olaraq oxu üçün seçilmiş kitablarla tanış etmək; b) kitabların oxunuşunu təşkil etmək; c) əldə edilmiş nəticələri yekunlaşdırmaq.

27. Biliklərin möhkəmləndirilməsi və genişləndirilməsi, oxu mədəniyyətinin yüksəldilməsi sahəsində kitabxananın fəaliyyəti aşağıdakı məqsədlərin həyata keçirilməsinə xidmət edirdi: a) şagirdlərin ümumtəhsil səviyyəsinin yüksəldilməsinə və müəyyən peşəyönümü istiqamətinə xidmət edən kitabların mütaliəsi; b) mütaliə və biblioqrafik biliklərin şagirdlərdə formalaşması.

28. Məktəb kitabxana həyatının tarixi mərhələləri üzrə oxunmuş kitablar haqqında rəylərin, referatların, məruzələrin annotasiyaların

hazırlanması şagirdlərə oxuduqları kitabların məzmununu və ideyasını dərindən başa düşmək və düzgün qiymətləndirmək imkanı vermişdir. Bu baxımdan sinifdənxaric mütaliə işləri üzrə müsabiqələrin keçirilməsi oxucuları fəallaşdırırdı, daha çox şagird kütləsini oxuya cəlb edirdi.

Fəal oxucular boş vaxtın səmərəli təşkilinə, çoxsahəli yaradıcı işlərin aparılmasında, kitabların mübadiləsi və təbliğində, fərdi və kollektiv tədbirlərin təşkilində müsbət rol oynamışlar.

29. Sovet dövründə tədris ilinin əvvəlində kitabxanaçı pedaqoji kollektivlə qarşılıqlı əlaqə əsasında şagirdlərin mütaliəsinin təşkili üzrə vahid iş planı tərtib etmək və bütün tədris ili ərzində bu plana əməl etməyə diqqəti artırmağa cəhd göstərmişdir.

Planın həyata keçirilməsində aşağıdakı tələblərə əməl olunmuşdur:a) şagirdlərin sinifdən və məktəbdənkənar oxusu ilə əlaqədar aparılan işlərin məzmunu, forma və metodlarının müəyyən edilməsində əlaqə və ardıcıllığın gözlənilməsi; b) oxuculuq fəaliyyətinin təşkilində müxtəlif yaşlı məktəblilərə fərdi yanaşma olmuşdur ki, buradasinifdənxaric mütaliənin fərdi işplanının tərtibi xüsusi əhəmiyyət kəsb etmişdir; c) proqram materialları vasitəsilə möhkəmləndirilən, məktəblilərin nəcib keyfiyyətlərini formalaşdıran, onların sosial və peşə fəallığını artıran kollektiv iş formalarının təşkilinə, keçirilməsinə və ardıcıllığına diqqət yetirmək vacib sayılmışdır.

30. Sovet dövründə kitabxana kollektorunun iş planına müvafiq olaraq kitabxana fondunun komplektləşdirilməsini təmin etmək, bu məqsədlə ayrılan vəsaitin düzgün xərclənməsinə nəzarəti yüksəltmək, həmin vəsaitin rayon(şəhər) Təhsil Şöbəsinin büdcəsində mərkəzləşdirmək üçün daimi nəzarətin böyük rolu olmuşdur.

31. Müəyyən olunmuşdur ki, ayrı-ayrı tədris və ixtisasartırma müəssisələrində şagird mütaliəsi ilə əlaqədar kursların təşkili, məktəb kitabxanasının iş sistemini formalaşdırmaq baxımından faydalı olmuşdur:a) Azərbaycan dili və ədəbiyyat proqramına I-XI sinif şagirdlərinin yaş xüsusiyyətlərinə və təhsil səviyyələrinə müvafiq olaraq “Kitabxana-biblioqrafiya biliklərinin əsasları” mövzusunu (6-8 saat) əlavə etmək və fənn müəllimlərinin metodbirləşmələrində eyni mövzuda, eyni miqdarda məşğələlərin təşkilinə nail olmaq; b) fənn müəllimlərinin ixtisasartırma kurslarının proqramına “Məktəblərdə mütaliə mədəniyyətinin formalaşması və bu prosesə rəhbərlik” adlı məşğələ mövzusu daxil etmək; c) bütün ixtisaslar üzrə pedaqoji universitetlərdə “Şagirdlərin mütaliə mədəniyyəti tərbiyəsi” adlı kursun proqramını tərtib etmək kimi məsələlərin həllinə fikir vermək faydalı olmuşdur.

32. Mütaliə keyfiyyəti və mədəniyyətinin yüksəldilməsinə, şagirdlərin intellektual və idrak fəaliyyətinin inkişafına müsbət təsir göstərən tövsiyələrə əməl olunarsa, səmərəli nəticələr əldə olunar. Bu baxımdan aşağıdakılar labüd olmuşdur: a) kitabxanaçı, sinif rəhbəri və fənn müəllimlərinin birgə rəhbərliyi və nəzarəti ilə sinifdənxaric oxunun sistemli şəkildə aparılması; b) sovet dövrü şəraitində fiziki şərait(oxu zalı, kitablar üçün otaq və s.) maddi-texniki baza mütaliəyə rərhbərlikdə pedaqoji prinsipləri nəzərə almağa kömək edən əyani vəsait və vasitələrin olması(təlimat və tövsiyələr, kompüterlər, filmoskoplar, diaskoplar, biblioqrafik aparatlar və s.), məktəb kitabxanasının bədii tərtibatı; c) kitabxanaşünaslıq kursunda "Uşaqlara kitabxana xidməti" adlı kurslar təşkil etmək, orada mütaliənin pedaqogika və psixologiyasına dair mühazirələr oxumaq; ç) məktəb kitbxanasını yararsız kitablardan təmizləmək, onu klassik və ən yaxşı müsair uşaq ədəbiyyatı, həmçinin metodik ədəbiyyat, kitabxanaşünaslıq və biblioqrafiyaya aid vəsaitlərlə təmin etmək; d)şagirdlərin oxu mədəniyyətinin yüksəldilməsi məqsədilə aparılan iş formalarının təkmilləşdirilməsi üzrə metodik tövsiyələr hazırlamaq; e) qabaqcıl təcrübəni ümumiləşdirmək, səmərəli informasiyanın köməyi ilə onu kütləvi şəkildə oxuculara çatdırmaq və s. kimi məqsədlərin güdülməsi məqsədəuyğundur.

33. Mütaliə mədəniyyətini, bibliopqrafik bilik, bacarıq və vərdişlərini inkişaf etdirmək məqsədilə kitabxana dərslərinin aparılmasında fənn müəllimlərinin, sinif rəhbərlərinin və məktəb kitabxanaçısının qüvvələrini birləşdirmək işindən, kitabların tövsiyə olunmasında və digər məqsədyönlü işlərin aparılmasında məktəbin və kitabxanaının imkanlarından istifadə edilməsi yaxşı nəticələr verir.

34. Keçmişin təcrübəsindən aydın olur ki, şagirdlərin mütaliəsinə rəhbərliyin nəzəri, metodik və tarixi məsələlərinin tədqiq edilməsi ilə yanaşı bu gün məktəb kitabxanaları şəbəkəsinin planauyğun təşkil edilməsi, məktəb kitabxanası üçün müstəqil otaqların olması, hətta belə otaqların tikilməsi, şagirdlərin və kitabların sayına görə kitabxana işçilərinin sayının müəyyənləşdirilməsi, hər il müntəzəm olaraq kitab alınmasına büdcə ayrılması, fondun düzgün təşkili, oxuculara xidmət üsullarının təkmilləşdirilməsi və s. bu kimi məsələlərin həlli vacibdir.Bütün bunlar şagirdlərin psixoloji mühitinə müsbət təsir göstərir.

Beləliklə, XIX-XX əsrlər ərzində milli kitabxana mədəniyyəti tarixinin yadda qalan hadisələri baş vermiş və Azərbaycan xalqının ən böyük kitab xəzinəsi yaradılmış, bütün bölgələri əhatə edən geniş kitabxanalar şəbəkəsi qurulmuş və mərkəzləşdirilmiş, kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş və kitab palatası təşkil edilmişdir. Bu gün həm ictimai, həm

də məktəb kitabxanalarının kitab fondları həm xarici, həm də yerli yazıçı və alimlərin kitablarının yeni nəşrləri ilə zənginləşdirilir.

Lakin onu da yaddan çıxarmaq olmaz ki, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı dəstələri işğala məruz qoyduqları ərazilərimizdə vandalizm aktı törətmiş, illərlə fondlarında 4 milyondan artıq kitabın mühafizə olunduğu 1000-ə yaxın kitabxananın və kitabxana filiallarını birləşdirən mərkəzləşdirilmiş kitabxana sistemini bütövlükdə dağıtmışlar.

O cümlədən, işğal edilmiş rayonlarda: 890 yaşayış məntəqəsinə daxil olan 150000 ev, 7000 ictimai bina, 693 məktəb və onların kitabxanaları, 855 uşaq bağçası, 695 sağlamlıq müəssisələri, 927 kənd, şəhər və digər ictimai kitabxanalar, 44 qədim məbədlər, 9 məscid, 9 tarixi yer, 464 tarix və muzey abidələri, 40000 muzey eksponatları, 6000 sənaye və kənd təsərrüfat müəssisələri, 800 km avtomobil yolu, 160 körpü, 2300 km su kəməri, 2000 km qaz kəməri, 15000 km elektrik xətti, 280000 hektar meşə, 1000000 hektar əkin sahəsi, 1200 km suvarma sistemi tamamilə məhv edilmişdir. Həmçinin 244000 qoyun, 69000 iri buynuzlu mal Ermənistana aparılmışdır. Ümumi itki 60 milyard ABŞ dolları dəyərində Azərbaycanın itkisi olmuşdur. («Erməni terroru» kitabı, B., 2005, 166 s., s.1-2; «Azərbaycana qarşı erməni təcavüzünün nəticələri» – B.2006, 12 s., s.2-3) .

Fiziki canlı qüvvə daha böyük dəhşətlərə düçar olmuşdur. Azərbaycan xalqına qarşı törədilən soyqırımının fiziki canlı qüvvəsinin nəticəsi belə olmuşdur: Ermənistandan250000 qaçqın, (indi 1 milyona yaxın), Azərbaycanın işğal edilmiş ərazilərindən 660000 məcburi köçkün, (indi 3 milyona yaxın) doğma ata-baba yurdlarından, doğma od-ocaqlarından məhrum edilmişdir. Fiziki canlı itki aşağıdakı kimi olmuşdur: 20000 adam həlak olmuş, 50000 adam əlil olmuş, 4866 adam itkin düşmüşdür.

Bununla yanaşı Qərbi Azərbaycanda (indiki Ermənistanda) azərbaycanlılara məxsus olan 216 orta məktəbin, 179 sırf azərbaycanlı kəndinin, o cümlədən 80 beynəlmiləl kəndin kənd və məktəb kitabxanaları darmadağın edilmişdir. Qeyd edilən məktəb və kəndlərin maddi və mədəniyyət abidələri (muzeylər, laboratoriyalar, tarixi abidələr, məscidlər və s.) məhv edilmişdir. 269 kəndin (179+80) kolxoz və sovxozlarının və həmin kəndlərin sakinlərinin kənd təsərrüfat avadanlıqları (maşınlar, traktorlar, kombaynlar və s.) və malqarası, ambarlar müsadirə edilmişdir. Qərbi azərbaycanlıların itkisi 40 milyard ABŞ dolları dəyərində olmuşdur (Əziz Ələkbərli. "Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı" kitabı, B.2008. 560 s.).

Bununla yanaşı bu gün kitabxana-informasiya şəbəkəsinə malik Azərbaycanımızda 12 mindən çox müxtəlif tipli kitabxana mövcuddur. Kitabxana işi hər an müstəqil dövlətimizin qayğısındadır. 1996-cı ildə azərbaycan hökuməti Ulu öndərimiz Heydər Əliyevin imzası ilə "Azərbaycan Respublikasının kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir. 1999-cu ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bununla yanaşı 20 aprel 2007-ci ildə «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» ölkə prezidenti İlham Əliyevin sərəncamı Respublikanın bütün növ kitabxanalarının həyatında mühüm rol oynamış və hazırda da oynayır.

## CƏDVƏLLƏR

### 1845-ci il məlumatına görə qəza məktəblərinin, şagirdlərinin, müəllimlərinin, və o cümlədən onların əsaslı kitabxanalarında olan kitabların sayı

**Cədvəl 1**

| № | Məktəblər | Açıldığı tarix[1] | Yenidən təşkili[2] | Şagirdlərin sayı | | | Müəllimlərin sayı[6] | Kitab nüsxələrinin sayı[7] |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1845[3] | 1845[4] | 1846[5] | | |
| 1 | Bakı | 17/01-1832 | | 66 | 56 | 58 | 5 | 746 |
| 2 | Gəncə | 18/02-1833 | | 66 | 115 | 85 | 5 | 113 |
| 3 | Naxçıvan | 25/03-1837 | | 121 | 71 | 121 | 5 | 152 |
| 4 | Nuxa | 30/12-1831 | 18/01.1854 | 66 | 51 | 59 | 5 | 360 |
| 5 | Şamaxı | 12/Y-1838 | 17.01.1854 | 126 | 110 | 121 | 6 | 249 |
| 6 | Şuşa | 30/12.1830 | 18.01.1854 | 145 | 127 | 127 | 5 | 301 |
| Cəmi | | | | 590 | 530 | 571 | 31 | 1921 |

1–7. 1,4,6,7-1846-cı il üçün Qafqaz kalendarı, T.1845; 2,3,5-Gürc.Resp. MDTA, f.423, f.425

2-f.423,s.1,iş№177, v.174,176,178; 3-f.425,s1,iş№21,v22; 5-f.425,s.1,iş21,v22

Bəzi məlumatlarda Şamaxı qəza məktəbinin 17 yanvar 1932-ci ildə təsis edildiyi qeyd edilir.

/ Bax: Gürc. Resp. MDTA, f. 423, s. I iş № 177 vərəq 176/.

**Müxtəlif illər üzrə qəza məktəblərinin əsaslı və şagird kitabxanalarında kitabların sayını göstərən (mənbələr 1-10) Əsaslı və şagird kitabxanası**

**Cədvəl 2**

| № | Məktəblər | Şagird lərin sayı | İllər | Əsaslı kitabxana | | | Şagird kitabxanası | | | Cəmi | | Digər tədris vəsaitləri | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Kitab adlarının sayı | Nüsxə sayı | Dəyəri man | Kitab adlarının sayı | Nüsxələrin sayı | Dəyəri manat | Kitab adlarının sayı | Nüsxələrin sayı | Dəyəri manatla | İllər xəritələr cədvəllər, cihazlar |
| 1 | Bakı | - | 1865[2] | - | - | 106678 | - | - | - | - | - | 1066.78 | - |
| 2 | Gəncə | -<br>- | 1863<br>1865[1] | 168<br>224 | 464<br>609 | 912.66<br>- | -<br>- | -<br>- | -<br>- | -<br>- | -<br>- | -<br>- | -<br>- |
| 3 | Naxçıvan | 158<br>147 | 1865<br>1877[5] | 761<br>905 | 2448<br>3271 | -<br>- | -<br>198 | -<br>355 | -<br>- | -<br>1103 | -<br>3626 | -<br>- | -<br>40 |
| 4 | Nuxa | 67<br>83<br>155 | 1865<br>1868<br>1877[4] | 192<br>330<br>546 | 890<br>-<br>1411 | -<br>1352.5<br>2<br>- | -<br>37<br>59 | -<br>-<br>122 | -<br>10<br>- | -<br>367<br>- | -<br>-<br>- | -<br>1362<br>- | -<br>11<br>2 |
| 5 | Şamaxı | 95 | 1865<br>1868 | 233<br>- | 822<br>- | -<br>- | -<br>41 | -<br>- | -<br>9.47 | -<br>- | -<br>- | -<br>- | -<br>3 |
| 6 | Şuşa | 195 | 1865 | 226 | 555 | - | -<br>- | -<br>- | -<br>- | -<br>- | -<br>- | -<br>- | -<br>- |
